PENETRON

# SCREPA M600




İnyeksiya edilə bilən, incə üyüdülmüş, quru tikinti hidroizolyasiya materialı.
P150, B45, W20, F400, “Screpa M600 inyeksiya edilə bilən”.
QOST 31357-2007 İncə üyüdülmüş
Portland sementindən və kimyəvi əlavələrdən ibarətdir.

Təyinatı: Tikinti konstruksiyalarında 0,4 mm-dən çox açıqlıqda olan sabit çat yerlərinin, yarıqların, boşluqların və aralıqların hidroizolyasiyası və ya möhkəmləndirilməsi məqsədilə doldurulması üçün istifadə edilir.

Yüksək dözümlülüyə malik, suyadavamlı, qatılaşmayan beton və məhlulların hazırlanması zamanı bitişdirici kimi tətbiq edilir. Ankerlərin bərkidilməsi üçün də istifadə oluna bilər.

Üstünlükləri:
- ✓ yüksək sukeçirməzlik;
- ✓ yüksək davamlılıq;
- ✓ yığılmanın olmaması;
- ✓ yüksək şaxtayadavamlılıq;

TEXNİKİ XÜSUSİYYƏTLƏRİ:

| GÖSTƏRİCİNİN ADI | TƏLƏBLƏR | FAKTİKİ DƏYƏRİ | ÖLÇÜ VASİTƏLƏRİ |
|---|---|---|---|
| QURU QARIŞIM | | | |
| Rütubətlilik | 0,2%-dən çox olmayaraq | 0,17% | QOST 8735 |
| Doldurucunun dənəciklərinin böyüklüyü | 0,16 mm | 0,16 mm | |
| Ən böyük dənəciklərin miqdarı | 0,5%-dən çox olmayaraq | 0,49% | |
| Kütlə sıxlığı | 880±100 kq/$m^{33}$ | 880kq/$m^{33}$ | |

| | | | |
|---|---|---|---|
| HARÇ QARIŞIMI | | | |
| Hərəkətlilik | Pк150-dən az olmamaqla | 165 mm | QOST P58277 |
| İlkin hərəkətliliyin qorunma səviyyəsi | 30 dəqiqədən az olmamaqla | 30 dəqiqə | |
| Susaxlama qabiliyyəti | 95%-dən az olmamaqla | 96,85% | QOST 5802 |
| QARIŞIM | | | |
| Suudma qabiliyyəti | 8%-dən çox olmamaqla | 5% | QOST 5802 |
| 1 sutka ərzində əyilmə zamanı gərilməyə dözümlülük dərəcəsi | Btb 2,4-dən az olmamaqla | Btb2,4 (3,5 Mpa) | QOST 310.4 |
| 1 sutka ərzində sıxılmaya davamlılıq dərəcəsi | B20-dən az olmamaqla | Btb2,4 (3,5 Mpa) | |
| 28 sutka ərzində əyilmə zamanı gərilməyə dözümlülük dərəcəsi | Btb 5,2-dən az olmamaqla | Btb 7,6 (10 Pa) | |
| Özüllə yapışma möhkəmliyi | 1,7 MPa-dan az olmamaqla | 1,7Mpa | QOST P58277 |
| Şaxtayadavamlılıq markası | F 400-dən az olmamaqla | F 400 | |
| Kontakt zonasında şaxtayadavamlılıq markası | Fкз 100-dən az olmamaqla | Fкз 100 | |
| Sukeçirməzlik üzrə markası | W20-dən az olmamaqla | W200 | QOST12730.5 |
| ƏLAVƏ XÜSUSİYYƏTLƏR | | | |
| Qablaşdırma | Çoxqatlı torbalar (20 kq), plastik vedrələr (18 kq), MKP (800 kq) | | |
| Saxlama şərtləri və daşınma | Çoxqatlı torbalar və MKP quru şəraitdə saxlanılmalıdır, plastik vedrələr istənilən rütubətdə və temperaturda saxlanıla bilər. | | |
| Zəmanətli saxlama müddəti | MKP – 6 ay, çoxqatlı torbalar – 12 ay, plastik vedrələr – 18 ay zavod qablaşdırmasının hermetikliyinin pozulmaması şərti ilə | | |

## İSTİFADƏ ÜÇÜN TƏLİMAT

İşi quru, küləksiz hava şəraitində, konstruksiyanın səthinin temperaturu +5ºC-dən +35º C olduqda aparmaq lazımdır

### Quru qarışımın sərfiyyatı

1,50 – 1,70 kq/$dm^3$

### Təhlükəsizlik tədbirləri

Rezin  əlcəklərdən, pambıq əlcəklərdən, qoruyucu eynəklərdən, qalın parçadan xüsusi iş geyimlərindən, çəkmələrdən istifadə etmək tələb olunur. Qarışımdan dəriyə və ya gözlərə düşdüyü təqdirdə dərhal su ilə yuyulmalı və həkimə müraciət edilməlidir.

### Səthin hazırlanması

Çat yerin hər iki tərəfində konstruksiyanın öz qalınlığının yarısına bərabər 45° bucaq altında şahmat formalı dəliklər açılmalıdır. Dəliklər konstruksiyanın ortasında çatdakı boşluğu kəsib keçməlidir. Dəlikləri hava ilə sovurub təmizləmək, ya da təzyiq altında su ilə yumaq lazımdır. Çatın ağzı "Screpa M700 – təmir üçün" materialı ilə doldurulmalıdır.

### Qarışım məhlulunun hazırlanması

Tələb edilən konsistensiyadan asılı olaraq qarışdırılan suyun miqdarı və xassələri fərqli olacaq.

| GÖSTƏRİCİNİN ADI | GÖSTƏRİCİNİN DƏYƏRİ | | |
|---|---|---|---|
| | Plastik | Plastik-maye | Yüksəkaxıcı |
| Qarışdırılan suyun kəmiyyəti l/kq | 0,25 | 0,3 | 0,4 |
| Su və quru qarışımın həcmə görə nisbəti, Su/quru qarışım | 1/3,5 | 1/3 | 1/2,5 |
| Hərəkətlilik | Pk160 | Pk240 | Pk300 |
| Əyilmə zamanı davamlılığı, az olmayaraq<br>- 1 sutkada<br>- 28 sutkada | 3,5 MPa<br>10 Mpa | 3,0 MPa<br>6,5 Mpa | 2,0 MPa<br>5,0 Mpa |
| Sıxılma zamanı davamlılığı, az olmamaqla<br>- 1 sutkada<br>- 28 sutkada | 30 MPa<br>70 Mpa | 20 MPa<br>60 Mpa | 8 MPa<br>50 Mpa |
| Betona yapışma dərəcəsi, az olmamaqla | 1,7 Mpa | 1,5 Mpa | 1,2 Mpa |
| Sıxılma deformasiyası (genişlənmə) | +0,04% | +0,02% | +0,01% |
| Şaxtayadavamlılıq markası, az olmayaraq | F400 | F300 | F300 |
| Sukeçirməzlik markası, az olmayaraq | W20 | W16 | W12 |

Təmiz sudan və təmiz qabdan istifadə etmək lazımdır. Tələb olunan nisbətdə 2 dəqiqə ərzində su əlavə edilərək əllə və ya aşağı sürətli drel vasitəsilə qarışdırılmalıdır. Qarışdırma zamanı su quru qarışıma yavaş-yavaş əlavə edilməlidir. Qarışım 30 dəqiqə ərzində su əlavə edilmədən müntəzəm şəkildə qarışdırılaraq istifadə olunmalıdır.

## TƏTBİQ EDİLMƏSİ

NDM 20, NDM 40 və ya şnek nasoslarından istifadə edilməlidir. Nasosun iş qabiliyyəti ondan əvvəlcə su vurulmaqla yoxlanılmalıdır. Sonuncu inyektor quraşdırılmalıdır. Sistemdə təzyiqin kəskin şəkildə artmasına, yaxud əksinə, 2-3 dəqiqə ərzində təzyiqin artmamasına və ya qarışımın qonşu dəlikdən axmağa başlamasına qədər inyeksiya aparılmalıdır. Daha sonra növbəti inyektor quraşdırılmalı və inyeksiyaetmə prosesi davam etdirilməlidir. Qarışımın qatılığı (yapışqanlığı) artdığı təqdirdə və iş başa çatdırıldıqda nasos su ilə yuyulmalıdır. İnyektordan qalan boşluğu “Penecrete” harç qarışımı ilə doldurmaq olar.

## QULLUQETMƏ

3 sutka ərzində mexaniki təsirlərdən və mənfi temperaturdan qorumaq lazımdır.